**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**-----------------------------------------------------------------------**
**AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİ**
==========================================

*Əlyazması hüququnda*

**QURBANOVA XATIRƏ VƏLI QIZI**

# AZƏRBAYCANIN TOXUCULUQ SƏNAYESINDƏ ISTEHSALIN STIMULLAŞDIRILMASI ISTIQAMƏTLƏRI

**İxtisas: 5304.01 – "İqtisadi fəaliyyət növləri"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2016**

Dissertasiya işi Azərbaycan Texnologiya Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **i**qtisad üzrə elmlər doktoru, professor
**Fizuli Əziz oğlu Məmmədov**

**Rəsmi opponentlər:** **i**qtisad üzrə elmlər doktoru, professor
**Mehralı Məmməd oğlu Fərzəliyev**
iqtisad elmləri namizədi, dosent
**Mahir Məcid oğlu Məmmədov**

**Aparıcı təşkilat: Mingəçevir Dövlət Universiteti**

Müdafiə 01 dekabr 2016-cı il tarixdə saat $11^{00}$-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən D.02.141 Dissertasiya Şurasının iclasında olacaqdır.

**Ünvan:** AZ1010, Bakı şəhəri, Azadlıq prospekti, 34, ADNSU

Dissertasiya işi ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" oktyabr 2016-cı il tarixində göndərilmişdir.

**D.02.141 Dissertasiya Şurasının**
**Elmi katibi, t.e.d., professor** **Ə.M.Əliyev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Ölkə iqtisadiyyatının bazar münasibətləri əsasında formalaşması, ölkədə düzgün iqtisadi siyasətin qurulması və bu əsasda geniş islahatların aparılmasını tələb edir. Bu baxımdan digər sahələrdə olduğu kimi, sənaye sektorunda da geniş islahatların aparılması, yeni mülkiyyət münasibətləri əsasında bazar münasibətlərinin tələblərinə cavab verən əsaslandrılmış iqtsadi konsepsiya və proqramlar hazırlanması sahəsində ölkə iqtisadiyyatı qarşısında yeni vəzifələr durur. İqtisadi islahaların aparıldığı indiki şəraitdə ən başlıca vəzifələrdən biri də qeyri-neft sektorunun və onun prioritet sahələrinin səmərəli fəaliyyət mexanizminin təmin edilməsindən ibarətdir.

Respublikada yeni istehsal münasibətlərinin inkişafı bazar iqtisadi münasibətlərinə uyğun qurularaq istehsalçı və istehlakçılar arasında iqtisadi əlaqələrin qarşılıqlı münasibətlər üzərində qurulmasını, iqtisadiyyatın digər sferalarında olduğu kimi yüngül sənaye və onun aparıcı sahələrindən olan toxuculuq sənayesinin səmrəli fəaliyyətin təmin edilməsini və bu sahə üzrə istehsalın stimullaşdırılmasını əsas məsələlərdən biri kimi önə çəkir.

Hazırda respublikamızda yüngül sənaye müəssisələrinin iqtisadi-texniki səviyyəsi başqa sahələrə nisbətən xeyli aşağıdır. Bunun başlıca səbəblərindən biri istismar müddətini bitirmiş istehsal qurğularının xüsusi çəkisinin yüksək olması və inkişaf etmiş ölkələrlə müqayisədə istifadə olunan texnoloji avadanlıqların həm sayının, həm də modernəşmə səviyyəsinin yetərsizliyidir. Baxmayaraq ki, bazar iqtisadiyyatına keçiddən sonra respublikamızda fəaliyyət göstərən müəssisələrin 90%-dən çoxu özəlləşdirilmişdir. İxrac imkanlarının az olması və istehsal olunan məhsulların əsasən daxili bazar üçün nəzərdə tutulması, rəqabət mühitinin kifayət səviyyədə olmaması da mövcud problemlərin başlıca səbəbi kimi göstərilə bilər.

Araşdırmalar göstərir ki, bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq, bir çox obyektiv və subyektiv çətinlikləri nəzərə alsaq yüngül sənaye, o cümlədən toxuculuq sektorunun inkişafında bir sıra çətinliklərin yarandığını görmək mümkündür. Bu baxımdan nəzərdə tutulan sosial-iqtisadi inkişaf tempinə nail olunmamasının

çoxsaylı səbəblərindən biri istehsalın stimullaşdırılması tədbirlərinin reallaşdırılmasında sistemliyin gözlənilməməsi olmuşdur. Belə ki, yüngül, o cümlədən toxuculuq sənayesi məhsullarının qiymətlərin liberallaşdırılmasında daxili bazarın qorunması, qiymət tarazlığının gözlənilməsi, vergi-kredit növləri üzrə dərəcə və faizlərin müəyyənləşdirilməsi ilə təsərrüfatların maliyyə imkanları, əhalinin alıcılıq qabiliyyəti, əhalinin minimum istehlak xərcləri və s. kimi məsələlər üzrə uyğunsuzluqlar müşahidə olunmaqdadır. Məhz toxuculuq sənayesində qeyd edilən mühüm problemlərin araşdırılmasını nəzərdə tutan dissertasiya işi aktuallığı ilə seçilir.

**Problemin öyrənilmə vəziyyəti**. Bazar iqtisadi münasibətlərinə keçidlə əlaqədar iqtisadi islahatların dərinləşməsi şəraitində sənaye sektorunun fəaliyyət mexanizminin təkmilləşdirilməsini, bu istiqamətdə dövlətin iqtisadi tənzimləmə vasitələrinin rolunun və təsir dairəsinin artırılmasının elmi şəkildə əsaslandırılması, iqtisadiyyatın bir-birilə əlaqə fəaliyyət göstərən sahələrinin qarşılıqlı əlaqələrinin təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi, istehsalın stimullaşdırılması məsələləri iqtisadçı alimlərin diqqət mərkəzində olmuşdur.

Respublikanın iqtisadçı alimlərindən A.Ş.Şəkərəliyev, A.F.Musayev, A.H.Səmədov, T.Ə.Hüseynov, İ.N.Əliyev, S.V.Salahov, Ə.M.Abbasov, T.Ə.Quliyev, Ş.Ə.Axundov, H.B.Allahverdiyev, F.Ə.Məmmədov, M.X.Meybullayev, Ş.H.Hacıyev, Ə.Q.Əlirzayev və başqaları qeyd edilən problemin ayrı-ayrı aspektlərini öz əsərlərində və elmi məqalələrində araşdırmışlar. Eyni zamanda problemin bir sıra nəzəri və paraktiki məsələlərini rus iqtisadçı alimlərindən Прохоренко А.А, Зайцев Н.Л., Либерман А.М., Овчинников С.И., Павлов А.П., Гукова А.В., Масюк Н.Н. və başqaları tərəfindən geniş və ətraflı şərh edilmişdir.

Onların tədqiqatlarında bir çox mühüm məsələlərin, o cümlədən yeni təsərrüfatçılıq şəraitində iqtisadi vasitələrin xarakterik xüsusiyyətləri nəzərə alınmaqla, sənaye sektorunun əsas sahələrindən olan yüngül sənaye sektorunun fəaliyyət mexanizminin prioritetləri öz əksini tapmışdır. Lakin konkret olaraq toxuculuq sənayesində

istehsalın stimullaşdırılması məsələləri ölkə iqtisadçılarının nisbətən az araşdırdığı sahələrdəndir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədi iqtisadiyyatın əsas sahələrindən olan yüngül sənaye sektorunun, o cümlədən toxuculuq sənayesinin inkişaf etdirilməsinin mahiyyəti, xarakterik xüsusiyyətləri, nəzəri-praktiki məsələlərini öyrənməkdən, bu sahənin strukturunda sosial-iqtisadi nəticələri və meyilləri aşkara çıxarmaq və qiymətləndirməkdən, yüngül sənaye sektorunun əsas sahələrindən olan toxuculuq sənayesinin mövcud vəziyyətinini, inkişaf meyllərini təhlil etməkdən və istehsalın stimullaşdırılması üzrə elmi cəhətdən əsaslandırılmış daha təkmil təkliflər hazırlamaqdan ibarətdir.

Tədqiqatın məqsədinə uyğun onun aşağıdakı vəzifələr müəyyələşdirilmişdir:

- toxuculuq sənayesində istehsalın bazar münasibətlərinin tələblərinə uyğunlaşdırılmasının və stimullaşdırmanın nəzəri-metodoloji əsaslarının, iqtisadi məzmununun, inkişafının zəruruliyi və spesifik xüsusiyyətlərinin öyrənilməsi;
- toxuculuq sənayesinin inkişafında rəqabətədavalı istehsal mexanizmin formalaşdırılmasının zəruriliyinin əsaslandırılması;
- toxuculuq sənayesinin inkişafında dövlət tənzimlənməsinin rolunun müəyyənləşdirilməsi;
- yüngül sənaye sektorunun, o cümlədən toxuculuğun mövcud vəziyyətinin təhlili, onun inkişafına təsir edən amillərin öyrənilməsi və inkişaf meyillərinin tədqiq edilməsi;
- toxuculuq sənayesinin inkişafının başlıca istiqamətlərinin müəyyənləşdirilməsi;
- toxuculuq sahələrində istehsalın dövlət tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərinin əsaslandırılması;
- toxuculuq sənayesinin əsas xammalçısı olan təsarüfatlarla emal sahələri arasında inteqrasiya əlaqələrinin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi.

**Tədqiqatın predmeti.** Respublikanın toxuculuq sənayesində istehsalın stimullaşdırılması məsəsələləri dissertasiya işinin predmetini təşkil edir.

**Tədqiqatın obyekti**. Azərbaycan Respublikasında mülkiyyət formasından asılı olmayaraq fəaliyyət göstərən toxuculuq sənayesi

müəssisələri, həmin sahə ilə inteqrasiya əlaqələrinə malik emal müəssisələri tədqiqat obyektinə daxil edilmişdir.

**Tədqiqatın metodu**. Tədqiqatın nəzəri-metodoloji əsaslarını aqrar sahənin inkşafı ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, həmçinin Nazirlər Kabineti tərəfindən qəbul edilmiş normativ-hüquqi sənədlər, bu sahədə tədqiqat aparan yerli və xarici iqtisadçı alimlərin elmi əsərləri təşkil edir.

Tədqiqat zamanı müşahidə, müqayisə, iqtisadi-statistik təhlil, dinamika, monoqrafiya üsullarından geniş istifadə edilmişdir.

**Tədqiqatın məlumat mənbələri**. Dissertasiya işində, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin müvafiq statistik məlumatlarından, eləcə də müxtəlif mülkiyyət formasında fəaliyyət göstərən müəssisə və təşkilatların, müvafiq elmi-tədqiqat institutlarının, o cümlədən Azərbaycan Texnologiya Universitetinin, Azərbaycan Elmi-Tədqiqat və Pambıqşılıq İnstitutunun elmi-tədqiqat işlərindən istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti**. Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- bazar münasibətlərinin inkişafı şəraitində respublikada qeyri-neft sektorunun ən mühüm istehsal sahələrindən olan toxuculuq sənayesinin fəaliyyət mexanizmi və sahə üzrə rəqabətqabiliyyətli istehsalın genişləndirilməsi istiqamətində bəzi mühüm məsələlər elmi cəhətdən əsaslandırılmışdır;
- toxuculuq sənayesi məhsullarına daxili tələbatın ödənilməsi ilə yanaşı ixrac potensialının genişləndirilməsi nəticəsində xarici istehlak bazarlarına çıxış imkanlarının genişləndirilməsinin obyektiv zəruriliyi əsaslandırılmışdır;
- təsərrüfatçılığın yeni prinsiplərinin formalaşdığı hazırkı şəraitdə toxuculuq sənayesi üzrə yaranmış problemlər hərtərəfli təhlil edilmiş, stimullaşdırma siyasətində yol verilmiş nöqsanlar və çatışmazlıqlar, bu sahədə problemlərin həlli yolları müəyyənləşdirilmişdir;

- toxuculuq sənayesində xammal istehsalı müəssisələri ilə emal müəssisələri arasındakı əlaqələrin mövcud vəziyyəti və bu əlaqələrin inkişafına təsir edən amillər qiymətləndirilmiş, qarşılıqlı əlaqələrin yaxşılaşdırılması üzrə tədbirlər müəyyən edilmişdir;
- toxuculuq sənayesi müəssisələrinin maliyyə vəziyyəti ilə istehsal onunan məhsulun qiyməti, keyfiyyəti və bu sahəyə yönəldilən investisiyaların miqdarı və strukturu arasındakı əlaqə qiymətləndirilmiş, bu istiqamətdə yaranmış problemlərin aradan qaldırılması imkanları aşkara çıxarılmışdır;
- toxuculuq sənayesinin səmərəliliyini təmin etmək üçün stimullaşdırma siyasətində xüsusi əhəmiyyət kəsb edən iqtisadi mexanizmin tətbiqi üzrə təkmilləşdirmə tədbirlərinin əsas istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqatın nəticəsinin sınaqdan keçirilməsi və istifadə edilməsi**.

Tədqiqatın nəticələri respublikamızda keçirilən konfrans və seminarlarda məruzə edilmiş və bəyənilmişdir. Tədqiqatın nəticələri əsasında hazırlanmış təkliflər toxuculuq sənayesi istehsalının stimullaşdırılması, xammalla təmin olunması səviyyəsinin yüksəldilməsi, daxili bazarın qorunması, tənzimlənmə siyasətində istifadə olunan iqtisadi vasitələrin tətbiqinin səmərəliliyinin yüksəldilməsi, toxuculuq sənayesi məhsullarının rəqabət qabiliyyətinin və ixrac imkanlarının genişləndirilməsi baxımından praktiki əhəmiyyət kəsb edir. Dissertasiya işinin yerinə yetirilməsində əldə edilmiş nəticələr Gəncə Tekstil ASC tərəfindən istifadə üçün qəbul edilmişdir (arayış №48, 11.04.2016-cı il).

**Dissertasiya işinin həcmi və quruluşu**. Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflərdən ibarət olub, 124 səhifədən ibarətdir. İşdə 8 cədvəl, 8 şəkil, 91 adda verilmiş ədəbiyyat siyahısı vardır.

## İŞİN MƏZMUNU

Dissertasiya işinin **birinci fəslində** yüngül sənayedə toxuculuq məhsulları istehsalının formalaşması və inkişafının nəzəri-metodoloji əsasları, toxuculuq sənayesi məhsulları istehsalının stimullaşdırılmasının iqtisadiyyatın inkişafında rolu məsələləri şərh edilr.

Dünyada baş verən siyasi-iqtisadi dəyişikliklərlə əlaqədar yaşanan inteqrasiya prosesi, ölkəmizdə daxil olmaqla bir çox ölkədə mövcud olan istehsal vərdişlərinə və strukturlarına birbaşa təsir göstərmişdir. Dünya ticarət sistemində baş vermiş bu dəyişikliklər müqayisəli üstünlüklər yanaşması paralelində qiymət elastikliyinin yüksək olduğu və rəqabətin kifayət səviyyədə formalaşmadığı sektorlarda, o cümlədən yüngül sənayedə hiss edilməyə başlamışdır.

Azərbaycanın qədim və ənənəvi sahələrindən biri olan yüngül sənaye ölkənin xarici iqtisadi əlaqələrinin inkişafı baxımından mühüm potensiala malikdir. XIX əsrin sonunda Zaqafqaziyada ən böyük pambıq parça fabriki və Azərbaycanda ilk tikiş fabrikini Bakı şəhərində yaranmışdır. Yüngül sənaye əhalini parça, geyim, ayaqqabı və digər əşyalarla təmin edən sahələr qrupundan ibarət olan sahə və yarımsahələri üzündə birləşdirir. İqtisadiyyatın bu mühüm sferası emal sənayesinə aid olmaqla toxuculuq, ayaqabı, gön-dəri, xəz-dəri, tikiş və s. bu kimi sahələri üzündə birləşdirir. Yüngül sənaye kənd təsərrüfatı, maşınqayırma, və kimya sənayesi ilə sıx əlaqəli fəaliyyət göstərən sahədir. Kənd təsərrüfatı yüngül sənayeni ayri-ayri xammal növləri ilə, maşınqayırma – avadanlıqlarla, kimya sənayesi isə liflərlə və boyalarla təmin edir. Yüngül sənaye avadanlıq, kimyəvi liflər və s. alaraq öz növbəsində onların özlərini istehsal təyinatlı məhsullarla təmin edir. Yüngül sənayenin ağır sənaye ilə əlaqəsini, nisbətini nəzərə almaq əmək resurslarından rasional istifadə nöqteyi nəzərdən səmərəlidir. Belə ki, istehlak məhsulları istehsalı sahələrində sayca qadınlar daha çox üstünlük təşkil edirlər. Ölkə üzrə yüngül sənayenin sosial-iqtisadi rolu və əhəmiyyəti çox yüksəkdir. Bu tək fizioliji aspektdə deyil, həmçinin əhalinin estetik planda da tələbatının ödənilməsinə xidmət edir. Yüngül sənayenin mövcudluğu iqtisadi rayonların inkişafının kompleksliyini gücləndirir. Yüngül sənayenin tərkibində məhsul istehsalı üzrə və işləyən fəhlələrin sayına görə toxuculuq sənayesidir ki, o da öz növbəsində parça, trikotaj və digər məhsullar istehsal edən müəssisələri özündə birləşdirir.

Uzun illər ərzində yüngül sənaye müəssisələrinin xammalı olan kənd təsərrüfatı məhsulları qeyd olunan səbəblər ucbatından ilkin emal məhsulları şəklində ixrac edilmişdir. Ölkə əhalisinin istehlak etdiyi geyim məmulatlarının əksər hissəsini isə idxal olunan hazır məhsullar və yaxud idxal edilmiş parçalar əsasında ölkədə fəaliyyət

göstərən kiçik sexlərdə tikilmiş məhsullar təşkil etmişdir. Məlum olduğu kimi yüngül sənayenin ən qabaqcıl sahələrindən biri toxuculuqdur.

Toxuculuq texnologiyaları, lif və ipdən çıxarılan, ümumiyyətlə elastik (bəzi hallarda elastik olmayan) materialların istehsal texnologiyaları vəsitəsilə məmulat halına çevrilməsidir. Toxuculq və geyim istehsalı cəmiyyətin tələbatının ödənilməsində xüsusi əhəmiyyətə malikdir. Bu istehsal sahəsi böyük miqdrada maliyyə və insan resurslarının tələb olunduğu bir sahədir.

Toxuculuq müəssisələrinin əsas xammalı olan lif, təmin olunma mənbələrinə və növlərinə görə fərqləndirilir. Liflər davamlı və ya davamsız olaraq da təsnifləşdirilir. Liflər spesifik xüsusiyyətlərə görə müəyyən növ toxuculuq məhsulları istehsalında istifadə edilməkdədir. Liflər, uzunluğu, incəliyi, düzlüyü, rəngi, parlaqlığı, nəm çəkmə xüsusiyyəti, istilik saxlama xüsusiyyəti, dözümlülüyü, sürtünmə və aşınmaya davamlılığı , zərərlilərə qarşı dözümlülüyü nəzərə alınmaqla fərqli məhsulların əldə edilməsində tək başına və ya digər liflərlə qarışdırılaraq istifadə edilməkdədir. Təbii liflər xüsusilə insan sağlamlığı baxımından daha müsbət xüsusiyyətlərə sahib olduğu və kənd təsərrüfatı istehsalı vasitəsilə xam mal təminatı mümkün olduğu üçün hər zaman üstünlük təşkil etmişdir. Kimyəvi liflərin istehsalı isə əsasən kimya sənayesinin məhsulu olmaqla birlikdə bu sahədəki texnoloji yeniliklər ilə yüksək səmərəliliyin əldə olunması yeni liflərin istehsalını və toxuculuq sahəsinin inkişafını sürətləndirir.

Məhsulun keyfiyətinin yüksəldilməsi və çeşidinin yaxşılaşdırılması problemləri konkret ilkin xammalın istehsalından son hazır məhsulun buraxılışına qədər plan bütün proseslərlə sıx əlaqədardır. Belə ki,əsas etibarilə üst toxuculuq məhsulları istehsal trikotaj məmulatları fabriklərində alınmış təmiz yun və yarımyunun 40-50%-ni yenidən sarımaq və ya malgöndərənlərə qaytarmaq və ya növünü aşagı salmaq lazımdır. Bu sahədə məhsulun keyfiyyətini əsaslı surətdə yaxşılaşdırmaq üçün yeni növ pambıq parça, yun və ipək liflərin istehsalı ilə məşğul olmaq lazımdır. Habelə yeni toxuculuq müəssisələrini tikib istifadəyə vermək,artıq mövcud olan imkanlardan tam istifadə etmək,avadanlıiq və texnologiyanı modernləşdirmak lazımdır.Respublikanın yüngül sənayesindəki

problemlər toxuculuq maşınqayırma müəssələrinin olması ilə baglıdır. Ona görə də istər-istəməz digr dövlətlərdən asılı vəziyyətədüşürük. Beləliklə, məhsulun keyfiyyətini, onu formalaşdıran təkmil istehsal-texniki baza yaratmaqla, yeni mütərəqqi texnologiyaları tətbiq etməklə yaxşılaşdırmaq olar.

Hazırda toxuculuq sənayesinin inkişafı ilə əlaqədar beynəlxalq ticarətdə artan rəqabət səbəbiylə, sahib olduqları bazar paylarını qorumaq istəyən inkişaf etmiş ölkələr, istehsalın miqyasını genişləndirmədən istehsal texnologiyalarının modernləşdirilməsinə istiqamətlənmiş investisiyaların həcmini artırırlar. Bu istiqamətdə digər bir əhəmiyyətli məqamda inkişaf etmiş ölkələr malik olduqları maliyyə imkanları ilə bir tərəfdən istehsal məhsuldarlığında artımı təmin edir, digər tərəfdən isə mütərəqqi texnologiyanın tətbiqi ilə yüngül sənaye məhsullarının dözümlülük, elastiklik, yanğına davamlılıq kimi xüsusiyyətlərini inkişaf etdirərək əlavə dəyəri yüksək məhsulların istehsalına yönəlirlər. Ayrıca texniki-tekstil, bio-tekstil,ekoloji-tekstil kimi istehsal çox daha yüksək məhsullarla məhsul çeşidini zənginləşdirərək, rəqabətədavamlılığı təmin etdirmişlər baxmayaraq ki, bu cür istehsal prosesi istehsal xərclərinin artmasına səbəb olur. İstehsal xərcləri yüksək olmaqla birlikdə, mütərəqqi texnologiya və yüksək əmək məhsuldarlığı ilə optimal ölçülərdə istehsal qabiliyyəti nəticəsində əlavə dəyərli yüksək məhsulların istehsalını təmin edən inkişaf etmiş ölkələr dünya toxuculuq ticarətində öz qabaqcıl mövqelərini qoruyurlar.

Dissertasiya işinin **ikinci fəslində** yüngül sənaye sferasında mövcud potensialdan istifadə səviyyəsi və toxuculuq məhsulları istehsalın dinamikası, xammal istehsalı müəssisələri ilə emal müəssisələri arasındakı əlaqələrin mövcud vəziyyəti, respublikada toxuculuq sənayesinin inkişafına təsir edən amillər araşdırılmışdır.

Hazırda respublikamızda istehsal olunan yüngül sənaye məhsulları keyfiyyət baxımından muəyyən qədər geridə qalır. Xarici ölkələrdə isə istehsalın inkişafına təsir göstərən əsas amil istehlakçı tələbidir. Parçaların tərtibatı,paltarlaın və ayyaqabının modelləşdirilməsi və istehsalı dəbin muasir tələblərinə uyğun olması bu baxımdan xüsusi rol oynayır. Respublikamızda toxuculuq sənayesinin inkişafına təsir edən amillərin sırasında, texnoloji intizamın yetərsizliyini, müəssisələrdə səriştəsiz və ya az ixtisaslı

işçilər məşğul olmasını, keyfiyyətə yetərli səviyyədə diqqət yetirilməməsini göstərmək olar. Məhsulun keyfiyyətinə habelə texnoji avadanlığın aşağı səviyyəsi də xeyli təsir göstərir. Müəssisələrdə olan texnolji avadanlıq mənəvi və fiziki cəhətdən xeyli köhnəlmiş və xarici nümunəlırdən olduqca geri qalır.

Son illərdə toxuculuq sənaye məhsullarının keyfiyəətini yaxşılaşdırmaq məqsədilə respublikamızda fəaliyyət göstərən müəsisələrdə bu sahə üzrə ixtisaslaşmış ölkələrdən alınmış yeni avadanlıqlar quraşdırılmış, bir sıra istehsal sahələrini modernləşdirmək üçün xarici firmalarla kontraklar bağlanmış, paltarların modellər üçün ekspermental istehsalı yaradılmışdır. Lakin bütünlükdə, məhsulun keyfiyyətini yaxşılaşdırılması üçün əsas tədbirlərin görülməsi tələb olunur. Belə ki, bir çox ölkələrdə dövlət yüngül sənayeni inkişafı üçün müəsisələrlə moderinləşmə üçün güzəştli kreditlərin verilməsin, mənfəətdən verginin azaldılmasını və.s nəzərdə tutur. Son illər respublikamızda sahibkarlıq mühitinin yaxşılaşdırılması məqsədilə dövlət tərəfindən həyata keçirilən məqsədyönlü islahatlar yüngül sənaye sahəsinə aid olan müəssisələr artım dinamikasına çoxda böyük təsir göstərməmişdir. Bunun başlıca səbəblərindən biri kimi hazırda respublikamızda bu sahədə fəaliyyət göstərən müəssisələrin əlverişli iqtisadi mühitin olmasına baxmayaraq, bir sıra amillərin təsiri ilə kifayət qədər istehsalı həyata keçirə bilmirlər.

Araşdırmalardan məlum olur ki, toxuculuq sənayesində istehsalın hazırkı vəziyyəti heç də arzu olunan səviyyədə deyil. Belə ki, 2005-ci illə müqayisədə 2014-cü ildə pambıq iplik 22,8%, xalça və xalça məmulatları 393 dəfə, hazır pambıq parçalar 3,7 dəfə, corab istehsalı 43,3 faiz azalmışdır. Müvafiq dövrdə bu sənaye sahəsi üzrə müsbət nəticə yalnız hazır ipək parça istehsalında qeydə alınmışdır. 2005-ci illə müqayisədə hazır ipək parça istehsalı 26,6 faiz artaraq 553,4 min kvadrat metrə çatmışdır. Bəzi məhsul növləri üzrə qeydə alınmış artım toxuculuq sənayesinin ötən illə müqayisədə çax az həcmdə artımına səbəb olmuşdur. Son illər regionların inkişafını sürətləndirmək məqsədilə qəbul olunmuş dövlət proqramları bu istiqmətdə mövcud olanı geriləmənin qarşısının alınması və gələcəkdə arzu olunan nəticələrin əldə olunması üçün əsas faktor kimi qiymətləndirilməlidir.

Cədvəl 1

Toxuculuq sənayesi məhsulları istehsalının dinamikası

| Məhsulun adı | illər | | | | | | 2005-ci illə muqayisədə 2014-cü ildə %-lə artım, azalma+- |
|---|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2011 | 2012 | 2012 | 2014 | |
| Pambıq iplik, min ton | 17.7 | 7.6 | 9.9 | 16,6 | 15,5 | 11,9 | -22,8 |
| Corab məmulatları, milyon cüt | 3.0 | 2.0 | 3.3 | 5,6 | 4,5 | 1,7 | -43,3 |
| Xalça, xalça məmulatları, min kv. m | 630 | 3.3 | 2.8 | 1,9 | 2,0 | 1,6 | -99,7 |
| o cümlədən əmtəəlik | … | 2.3 | 1.8 | 1,9 | 2,0 | 1,6 | - |
| Pambıq mahlıcı, min ton | 56.0 | 11.4 | 14.2 | 22,9 | 12,1 | 13,5 | -75,9 |
| Hazır pambıq parçalar, min кv.m | 3099 | 1104 | 843,8 | 253,6 | 532,1 | 836,0 | -74 |
| Hazır ipək parçalar, min кv.m | 437.2 | 735.8 | 674.4 | 660.5 | 602,4 | 553,4 | + 26,6 |

Artıq dövlət proqramları çərçivəsində yüngül sənayenin inkişafı istiqamətində də mühüm addımların atıldığını söyləmək olar. Proqramın icrasından irəli gələn mühüm məsələlərdən biri kimi

toxuculuq və tikiş sənayesinin inkişafını sürətləndirmək məqsədilə, regionlarda çoxsaylı analoji sənaye müəssisələri fəaliyyətini təmin etməkdən ibarətdir.

Məhz bunun nəticəsidir ki, hazırda Azərbaycanda pambığın ilkin emalından tutmuş çatdırılmasını nəzərdə tutan kompleks müəssisələrin fəaliyyəti təmin olunub. 19 zavodu və bunlara təhkim olunmuş 106 tədarük məntəqəsini özündə birləşdirən pambıq təmizləmə sənayesinin ümumi istehsal gücü 1300 min tondur. Bundan başqa, son illərdə ölkədə barama, yun, gön-dəri və həmçinin kimyəvi liflərə əsaslanan toxuculuq müəssisələri fəaliyyətə başlayıb. Bu cür müəssisələrin fəaliyyətə başlaması ölkədə məşğulluq səviyyəsinin yaxşılaşdırılmasınada müəyyən töhfələr verə bilər. Lakin bu istiqamətdədə vəziyyət istehsalın miqdarında olduğu kimi heçdə arzu olunan səviyyədə deyil.

Araşdırmalar göstərir ki, toxuculuq sənayesində 2005-ci illə müqayisədə 2014-cü ildə işləyənlərin orta siyahı sayı təqribən 60 % azalaraq 10,1 min nəfərdən 4,2 min nəfərə geriləyib. Lakin sevindirici məqamlardan biri odur ki, Son illərdə ölkə iqtisadiyyatında əldə olunmuş yüksək makro iqtisadi göstəricilər toxuculuq sənayesində fəaliyyət göstərən işçilərin əmək haqqında və sahəyə qoyulmuş investisiyaların həcmində öz əksini tapmışdır. Belə ki, müvafiq dövrdə bir işçinin əmək haqqı 4,2 dəfə artaraq 64,9 manatdan 271,8 manata, əsas kapitala qoyulmuş investisiyaların həcmi isə, 2,2 milyon manatdan 38,8 milyon manata yüksəlmişdir. Müqayisə olunan ildə sənaye məhsulunu həcmi 39,9 faiz, sənaye sahəsi ilə məşğul olmaq üçün qeydə alınmış sahibkarların sayı isə 48,8 faiz artmışdır.

Azərbaycanda toxuculuq və geyim sektoru texnologiya səviyyəsi, iqtisadi fəaliyyət və ictimai işgüzar əlaqələrin inkişafı baxımından mühüm sosial-iqtisadi fəaliyyət sahələrindən biridir. Sektorun bu xüsusiyyətləri onun önümüzdəki illərdə dahada əhəmiyyət qazanacağına dəlalət edir. Lakin bu sahədə arzuolunan nəticəni qazanmaq üçün ilk növbədə sahənin potensial imkanlarından daha da yüksək səviyyədə istifadəni tələb edir.

Cədvəl 2

Toxuculuq sənayesində fəaliyyət göstərən müəssisələrin əsas göstəriciləri

| Göstəricilər | Illər | | | | | | 2005-ci illə muqayisədə 2014-cü ildə % |
|---|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | |
| Fəaliyyət göstərən müəssisələrin sayı - cəmi | 94 | 85 | 77 | 72 | 72 | 66 | 70,2 |
| dövlət | 23 | 16 | 14 | 14 | 14 | 14 | 60,9 |
| qeyri-dövlət | 71 | 69 | 63 | 58 | 58 | 52 | 73,2 |
| Sənaye fəaliyyətli fərdi sahibkarların sayı, | 84 | 115 | 122 | 128 | 119 | 125 | 148,8 |
| Sənaye məhsulunun həcmi, milyon manat | 34.8 | 29.4 | 52.3 | 57.7 | 51,2 | 48,7 | 139,9 |
| İşləyənlərin orta siyahı sayı, min nəfər | 10.1 | 5.2 | 4.1 | 3.3 | 3,8 | 4,2 | 41,6 |
| Bir işçinin orta aylıq əmək haqqı, manat | 64.9 | 223.4 | 252.7 | 230.1 | 254,6 | 271,8 | 4,2 dəfə |
| İlin sonuna əsas fondların mövcudluğu, milyon manat | 170.1 | 332.1 | 337.1 | 290,6 | 295,9 | 303,5 | 178,4 |
| Əsas kapitala investisiyalar, milyon manat | 2.2 | 9.8 | 0.2 | 5.7 | 10,4 | 38,8 | 17,6 dəfə |

Tədqiqatlar göstərir ki, son illərdə toxuculuq sənayesi müəssisələrinin sayının azalması ölkə əhalisinin bu sənaye məhsullarına olan tələbatının ödənilməsi səviyyəsinədə təsir edir.

Məlum olduğu kimi toxuculuq sənayesi məhsullarının böyük bir qismi idxal olunur. Mövcud durum vəziyyətin müəyyən qədər kəskinləşməsinə təsir göstərir. Toxuculuq sənayesinin inkişafına təsir edən digər önəmli səbəblərdən biri də emal müəssisələrinin illik istehsal gücünün xammalın emal olunmasına yetərsizliyidir. Hazırda fəaliyyət göstərən emal müəssisələrinin istehsal etdikləri məhsullar dünya bazarında rəqabət aparma qabiliyyətinə malik olmadığına görə xarici bazarlara ixrac olunmur. Bir sözlə istehlakçının zövqünə uyğun keyfiyyətli məhsul istehsalı hələki lazımi səviyyədə deyil.

Məhsulların tədarükü, emalı və satışı ilə məşğul olan sahələr arasındakı əlaqə və mənafelərin düzgün nizamlanmasında onların məhsul istehsalçıları ilə əlaqələrinin səmərəli təşkilinin də əhəmiyyəti olduqca böyükdür.

Qeyd etmək lazımdır ki, hazırda emal müəssisələrinin və nəqliyyat təşkilatlarının əsas istehsal fondlarının 70 %-dən çoxu köhnəlmiş və istifadə üçün yararsız hala düşmüşdür. Bununla yanaşı bina və qurğular, nəqliyyat vasitələri müasir dövrün tələblərinə cavab vermir. Ona görə də istehsal olunan məhsulların vaxtında tədarükünü həyata keçirmək, məhsulları mərhələlərlə emala vermək üçün saxlamaq, hazır məhsulları qablaşdırmaq, saxlamaq və reallaşdırmaq üçün tələb olunan şərait yoxdur. Bütün bunlar xammalın istehsalı, tədarükü, emalı və satışı ilə məşğul olan sahələrdə iqtisadi əlaqələrin pozulmasına, iqtisadi səmərəliliyin aşağı düşməsinə səbəb olmaqla istehsalın stimullaşdırılmasının düzgün təşkilinə nail olmağa imkan vermir.

Toxuculuq sənayesinin əsas xammalı olan kənd təsərrüfatı məhsullarından pambıq istehsalı 9,3 faiz, pambığın əkin sahəsi 2,1 faiz, məhsuldarlığı isə7,3 faiz azalmışdır. Müqayisə olunan illərdə yun istehsalı və barama istehsalında ciddi dəyişiliklər nəzərə çarpmamışdır.

Respublikada toxuculuq sənayesində fəaliiyət göstərən bir sıra pambıq, parça, toxuma, əyirmə fabrikləri və onların Qazaxda,

Ağstafada, Şəmkirdə, Xaçmazda şöbələri geniş fəaliyyət göstərir ki, bunlar yüksək iqtisadi gəlir əldə edrilər.

.

Cədvəl 3

Toxuculuq sənayesinin əsas xammalı olan kənd təsərrüfatı məhsullarının istehsal göstəricilərinin dinamikası

| Göstəri-cilər | İllər | | | | | | 2013-cü illə müqayisədə 2014-cü ildə %-lə |
|---|---|---|---|---|---|---|---|
| | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | |
| Pambıq, min ton | 31,9 | 38,2 | 66,4 | 57,0 | 45,2 | 41,0 | 90,7 |
| Pambığın əkin sahəsi, min ha | 21,0 | 30,1 | 42,8 | 29,2 | 23,4 | 22,9 | 97,9 |
| Pambığın məhsul-darlığı, sen/ha | 15,5 | 12,7 | 15,5 | 19,5 | 19,3 | 17,9 | 92,7 |
| Yun | 15,3 | 15,6 | 16,2 | 16,5 | 16,8 | 16,8 | 100 |
| Barama | 0,01 | 0,01 | 0,004 | 0,003 | 0,001 | 0,001 | 100 |

Araşdırmalar göstərir ki, hələlik məhsulların istehsalı, tədarükü, emalı və satışı ilə məşğul olan müəssisə və təşkilatların arasındakı iqtisadi əlaqələr səmərəli təşkil olunmadığına görə onların mənafelərini tam təmin etmir. Ona görə də məhsul istehsalının artımına və iqtisadi səmərəliliyin yüksəldilməsinə tam əməl olunmur.

Mövcud iqtisadi şəraitdə dünyada ölkələrin rəqabət gücünü təyin edən ən əhəmiyyətli meyarlardan kimi biri o ölkənin istehsal sahələrinin həm daxili bazarlarda həm də xarici bazarlarda göstərdiyi fəaliyyət və yaratdığı əlavə dəyərin miqdarı əsas

götürürlür. Təəssüf ki, respublikamızda qeyd olunan parametrlərə malik, keçmiş ittifaq dönəmində sənayenin ən qabaqcıl və ənənəvi istehsal sahələrindən sahələrindən biri olan toxuculuq sənayesi xeyli zəfləmişdir. Bununda başlıca səbəblərindən biri kimi sahə üzrə mövcud olan istehsal infrastrukturunun tənəzzülə uğramasını göstərmək olar.

Hazırda respublikamızda toxuculuq sənayesinin inkişaf etdirilməsi ilə bağlı bir sıra üstünlüklər vardır:

- toxuculuq sənayesinin tarixi ənənələri;
- toxuculuq sənayesinin istehsalı üçün zəngin xammal bazası;
- bir sıra istehsalatların respublikanın kiçik və orta şəhərlərində yerləşdirilməsi imkanı və ərazi ehtiyatı;
- nəqliyyat daşımaları baxımından əlverişli iqtisadi-coğrafi mövqe.
- potensial ixrac bazarlarına yaxınlıq və s.

Qeyd edilənlər bu sənaye sahəsinin inkişaf etdirilməsi üçün mühüm əhəmyyət kəsb etməkdədir. Sahənin inkişaf etdirilməsi məqsədilə, daxili və xarici bazar üçün məhsul istehsalı həcminin artırılması, həmçinin əsaslı vəsaitlərin ilk növbədə fəaliyyətdə olan müəssisələrin yenidən qurulması, genişləndirilməsi və texniki cəhətdən silahlandırılmasına yönəldilməsi, xarici investisiyaların, ekspertlərin, texnologiya və nou-hauların cəlb edilməsi, digər toxuculuq məhsulları istehsalçıları ilə əməkdaşlıq və kooperasiya əlaqələrinin qurulması, MDB və yaxın xaric ölkələrinin bazarlarına keyfiyyətli məhsulun ixrac edilməsi, toxuculuq sənayesinin inkişafı üçün xammal mənbəyi hesab edilən kənd təsərrüfatı məhsullarının bölgələr üzrə inkişafı, daxili və xarici istehlak bazarının tələbatının rəqabətədavamlı toxuculuq məhsullarla təmin edilməsi, toxuculuq sənayesi üçün xammal və hazır məhsulun ekoloji təmizliyinin və keyfiyyətinin dünya standartları səviyyəsinə çatdırılması, emal sənayesi üçün tələb olunan avadanlıqların respublikamızda istehsalının təşkil edilməsi zəruridi.

**Üçüncü fəsildə** toxuculuq sənayesi məhsulları istehsalının stimullaşdırılmasında investisiyaların rolu, məhsul istehsalına dövlət dəstəyinin həyata keçirilməsi və toxuculuq sənayesinin məhsulları istehsalının inkişafında xarici ticarət əlaqələrinin genişləndirilməsi məsələləri şərh edilir.

Azərbaycan təbii ehtiyatları azaldıqdan sonra inkişaf etmiş ölkələrin təcrübəsindən faydalanmaqla investisiya siyasətini həyata keçirməyi ön plana çəkməlidir.

İnvestisiyaların müasir iqtisadi prosesin təkanverici amili olması danılmaz faktdır. Onların düzgün yönəldilməsi və gəlir əldə etmək üçün münasib yerlərin seçilməsi də iqtisadi siyasət və şəffaflıqla bağlı olan məsələdir. İnvestorlar müəyyən bir layihəyə və ya fəaliyyətə maliyyə qoyuluşu edərkən onlar əsas məqsəd olaraq gəlir əldə edilməsini görürlər. Bu zaman iqtisadi fəaliyyətin perspektivləri qiymətləndirilir, mövcud imkanlar təhlil edilir. İlkin olaraq istənilən təklifin investorda maddi maraq oyatması başlıca şərtlərdəndir. Lakin maddi marağın oyadılması fəaliyyətin ilkin mərhələsi sayıla bilər. Belə ki, hər hansı bir işin ilkin şərtləri ilk baxışda maraq doğura bilər. Bu isə dərhal təklif edilən fəaliyyətə investisiya qoyulacağına zəmanət vermir. Normal halda investisiya qoyuluşu öncəsi bir sıra işlər icra edilir.

Araşdırmalardan məlum olur ki, sənaye sektorunun müxtəlif sahələrinə yönəldilən investisiyaların strukturunda, mədənçıxarma sənayesinə, tikinti sektoruna yönəldilən investisiyaların böyük bir qisminin xarici investorlar hesabına reallaşdırılmışdır. mal sənayesinin əsas sahələrindən hesab olunan toxuculuq sənayesi bu vəziyyət istisnadır. Hesab edirik ki,gələcəkdə xarici investorların bu sahəyə yönləndirilməsi üçün müəyyən təşviq edici tədbirlərin həyata keçirilməsi zərururidir.

Müstəqilliyimizin ilk illərində həyata keçirilən iqtisadi islahatlar nəticəsində ölkədə mövcud olan bütün yüngül sənaye müəssisələri özəlləşdirilməyə açıq elan edilib, onların bazasında səhmdar cəmiyyətlər yaradılıb, bəziləri tam olaraq özəlləşdirilib. Lakin bu müəssisələrin əksəriyyəti yeni təsərrüfatçılıq şəraitində fəaliyyət göstərməyə uyğunlaşa bilməyib. Avadanlıqların aşınmaya məruz qalması və sair səbəblərdən öz fəaliyyətlərini tam və ya qismən dayandırıblar. Nəticədə son illərdə ən ciddi geriləmələr məhz yüngül sənaye sektorunda baş verib. Təkcə son 6 il ərzində - 2009-2014-cü illərdə toxuculuq sahəsində fəaliyyət göstərən müəssisələrin sayı 114-dən 72-yə düşüb.

Sənayedə struktur siyasəti istehsalın texniki cəhətdən modernləşdirilməsinə, regionlararası təsərrüfat əlaqələrinin

təkmilləşdirilməsinə və yeni sənaye komplekslərinin və sənaye klasterlərinin yaradılmasının stimullaşdırılmasına yönəldiləcəkdir. Eləcə də, struktur siyasəti çərçivəsində daxili bazarın tələbatını ödəyən və ixracı mümkün olan innovasiya əsaslı məhsul və texnologiyaların yaradılması təşviq ediləcəkdir. Prioritet, dayanıqlı artım potensialı olan sahələrin inkişafının dövlət dəstəklənməsi davam etdiriləcəkdir:

- sənaye sahəsində qəbul edilən bütün proqram və konsepsiyalarda yüksək texnoloji və elmtutumlu istehsal sahələrinin inkişafı dəstəklənəcək;
- müəssisələrin texniki-texnoloji cəhətdən yenidən qurulması, müasir idarəetmə metodlarının tətbiqi ilə bağlı işlər davam etdiriləcək;
- idxalı əvəz edəcək və ixrac yönümlü məhsulların istehsalı stimullaşdırılacaq;
- müqayisəli üstünlüyə malik olan və rəqabətədavamlı sənaye məhsulları istehsalının genişləndiriləcək;
- sənaye sahələrində fəaliyyət göstərən müəssisələrdə beynəlxalq standartların tətbiqinə nail olunacaq;
- sənayenin strukturunun seçilmiş inkişaf istiqamətlərinə uyğun olaraq yenidənqurulması prosesi davam etdiriləcək;
- investisiya-innovasiya prosesləri, enerji və resursa qənaət edən, ekoloji təmiz texnologiyaların tətbiqi stimullaşdırılacaq;
- investisiya mənbələrinin müəyyənləşdirilməsi və səmərəliliyinin artırılması istiqamətində işlər davam etdiriləcək;
- sənayenin inkişaf tempinin və əmək məhsuldarlığının yüksəldilməsinin prioritetliyi təmin ediləcək;
- mövcud elmi-texniki və kadr potensialının gücləndirilməsi, ixtisaslı kadrların hazırlanması diqqət mərkəzində olacaq;
- sənaye müəssisələrinin beynəlxalq əlaqələrinin genişləndirilməsi ilə bağlı tədbirlər davam etdiriləcək və sənaye məhsullarının ixracı stimullaşdırılacaq.

İxrac potensialından səmərəli istifadə göstəricilərindən biri ölkənin ixracının artım səviyyəsi, mövcud sahələrin ixrac potensiallarına uyğunluğu məsələsidir. Bunlardan ən əsası ölkənin əsas makroiqtisadi göstəricisi olan ÜDM-də ixracın payı və bu iki göstəricinin artım templərinin müqayisəsidir. Məlum olduğu kimi,

ÜDM hesablanarkən onun tərkibindəki əsas hissələrdən biri olan ixrac götürülür. Belə ki, son dövrdə, ÜDM-in artım tempi ixracın artımını üstələmişdir. Bu da ondan xəbər verir ki, ÜDM-in artımında başqa amillərin rolu yüksəlmişdir. Bir sözlə, bu ilkin, sadə bir təhlil olsa da onu göstərir ki, ixracın artımı ölkədəki iqtisadi artımla adekvat deyildir. Ölkədəki makroiqtisadi sabitlikdən, artan maliyyə resurslarından daha səmərəli istifadə etməklə ixrac potensiallarını effektli reallaşdırmaq olar.

Qeyd etmək lazımdır ki, ixrac potensialından səmərəli istifadə göstəricilərindən biri də ölkənin ixracının artım səviyyəsi, mövcud sahələrin ixrac potensiallarına uyğunluğu məsələsidir. Məlum olduğu kimi, ÜDM hesablanarkən onun tərkibindəki əsas hissələrdən biri olan ixrac götürülür. Belə ki, son dövrdə, ÜDM-in artım tempi ixracın artımını üstələmişdir. Bu da ondan xəbər verir ki, ÜDM-in artımında başqa amillərin rolu yüksəlmişdir. Bir sözlə, bu ilkin, sadə bir təhlil olsa da onu göstərir ki, ixracın artımı ölkədəki iqtisadi artımla adekvat deyildir. Ölkədəki makroiqtisadi sabitlikdən, artan maliyyə resurslarından daha səmərəli istifadə etməklə ixrac potensiallarını effektli reallaşdırmaq olar.

Təhlili göstərir ki, 2013-cü illə müqayisədə 2014-cü ildə toxuculuq materialları və məmulatları idaxlı 6,9 faiz, pambıq 53,3 faiz,pambıq, keçə və sair toxunmamış materiallar, kəndir, ip idxalı 67,2 faiz, hopdurulmuş, üzlüklü toxuculuq materialları idxalı 8,8 faiz, maşınla və ya əllə toxunma trikotaj parçalar idxalı 73,9 faiz, paltar və geyim ləvazimatları (trikotajdan başqa) idxalı 24,3 faiz, toxunmuş trikotaj geyim əşyaları və ləvazimatları idaxlı isə 2,1 dəfə artmış, ipək idaxlı 7,6 faiz, yun, zərif və ya qaba heyvan tükü idaxlı 81,2 faiz, kimyəvi saplar idaxlı 54,6 faiz, kimyəvi liflər idaxlı 33,7 faiz, xalçalar və digər toxunma döşəmə örtükləri idaxlı 4,8 faiz, digər hazır toxuculuq məmulatları, işlənmiş geyimlər idxalı isə 50,5 faiz azalmışdır.

Son illər ölkə iqtisadiyyatının sürətli inkişafının fonunda daxili tələbatın böyük bir qisminin idxal hesabına ödənilməsi iqtisadi inkişafın davamlılığı baxımından xüsusi risq daşıyır. Böyük istehsal potensialının kifayət qədər aktivləşdirilməməsi bu vəziyyəti formalaşdıran əsas amillərindəndir. Keçmiş ittifaq dövründə sənaye sektorunun ənənəvi istehsal sahələrindən olan toxuculuq sənayesinin

istehsalı olan məhsulların böyük bir qisminin idxal edilməsi heçdə arzuolunan vəziyyət deyil.

Cədvəl 4

Toxuculuq sənayesi üzrə idxalın strukturu,

| Məhsullar | illər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2013-cü illə muqayisədə 2014-cü ildə, %-lə |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| Toxuculuq materialları və məmulatları | 61 035,3 | 74 879,7 | 80 093,4 | 93 827,4 | 100 276,7 | 106,9 |
| İpək | 32,5 | 650,0 | 135,7 | 1 256,0 | 1 160,0 | 92,4 |
| Yun, zərif və ya qaba heyvan tükü | 100,3 | 21,1 | 30,9 | 494,4 | 92,8 | 18,8 |
| Pambıq | 2 163,2 | 1 606,5 | 1 689,3 | 1 865,8 | 2861 | 153,3 |
| Kimyəvi saplar | 4 452,9 | 7 690,1 | 8 773,5 | 8 779,4 | 3984,8 | 45,4 |
| Kimyəvi liflər | 2 341,2 | 2 672,9 | 3 447,2 | 6 108,5 | 4052,4 | 66,3 |
| Pambıq, keçə və sair toxunmamış materiallar, kəndir, ip | 4 510,9 | 7 125,8 | 11 361,7 | 7 761,9 | 12977,6 | 167,2 |
| Xalçalar və digər toxunma döşəmə örtükləri | 4 521,2 | 4 932,6 | 5 784,5 | 7 498,1 | 7141,0 | 95,2 |
| Hopdurulmuş, üzlüklü toxuculuq materialları | 6 264,5 | 4 945,5 | 4 192,1 | 4 452,2 | 4843,7 | 108,8 |
| Maşınla və ya əllə toxunma trikotaj parçalar | 405,4 | 564,2 | 320,1 | 195,0 | 339,2 | 173,9 |

Cədvəl 4-ün davamı

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| Toxunmuş trikotaj geyim əşyaları və ləvazimatları | 2 779,8 | 4 784,2 | 5 886,4 | 6 578,0 | 13592,7 | 2,1 dəfə |
| Paltar və geyim ləvazimatları (trikotajdan başqa) | 23 065,5 | 28 050,0 | 29 827,8 | 32 223,9 | 40039,2 | 124,3 |
| Digər hazır toxuculuq məmulatları, işlənmiş geyimlər | 10 014,0 | 11 227,2 | 8 242,6 | 15 472,7 | 7655,3 | 49,5 |

Son illər toxuculuq sənayesinin əsas xammallarından olan pabıq və ipək istehsalının respublikada kəsgin olaraq azalması da bu sahə üzrə istehsal olunan məhsulların miqdarının azalmasınada bilavasitə təsir göstərir. Respublikada toxuculuq sənayesinin rəqabətqabiliyyətinində aşağı olması bu vəziyyətə təsir göstərən digər amillərdəndir.

## NƏTICƏ VƏ TƏKLIFLƏR

1. Tədqiqat nəticəsində həyata keçirilən iqtisadi islahatların mülkiyyət münasibətlərinin keyfiyyətcə inkişafına, bütövlükdə yüngül sənaye istehsalının səmərəli təşkili və idarə edilməsi sahəsində əldə olunmuş yeniliklərin ölkədə toxuculuq sənayesi istehsalının artırılmasına və çeşidlərinin zənginləşdirilməsinə, əmək məhsuldarlığının və iqtisadi səmərəliliyinin yüksəldilməsinə, həmçinin istehsalın stimullaşdırılmasına zəmin yaratdığı müəyyən edilmişdir.

2. Toxuculuq sənayesi istehsalının inkişafı, istehsalın stimullaşdırılması və iqtisadi səmərəliliyinin yüksəldilməsində ölkənin bu növ məhsullara daxili tələbatının təminatını şərtləndirən

mühüm amillərin aşkar edilməsi və onların vaciblik dərəcəsinə görə sıralanması mühüm əhəmiyyət hesab edirli. Odur ki, işdə həmin amillərin toxuculuq sənayesinin stimullaşdırılması və iqtisadi səmərəliliyinə təsirinin qiymətləndirilməsinin nəzəri və metodoloji müddəalarının araşdırılması bir sıra ümumiləşdirilmiş nəticələr əldə etməyə imkan yaratmışdır.

3. Araşdırmalar göstərir ki, respublikada toxuculuq sənayesi məhsullarının artırılmasının iqtisadi problemləri institutsional islahatları davam etdirməklə həll edilməli, hüquqi-normativ baza möhkəmləndirilməlidir. Toxuculuq sənayesi məhsulları ilə xarici bazara çıxışın təminatı şərtləri kimi istehsala, o cümlədən xammal istehsalına xərclərin azaldılması, ixrac infrastrukturunun modernləşdirilməsi, bazar konyunkturunun dərindən öyrənilməsi və baş verən tərəddüdlərə çevik reaksiya verilməsi, ekoloji tələblərə ciddi çəkildə əməl edilməsi xüsusi diqqət mərkəzində olmalıdlr.

4. Qeyd etmək lazımdır ki, ixrac potensialından səmərəli istifadə göstəricilərindən biri də ölkənin ixracının artım səviyyəsi, mövcud sahələrin ixrac potensiallarına uyğunluğu məsələsidir. Təhlillər nəticəsində məlum olur ki, son illər toxuculuq sənayesinin məhsullarının respublikadan ixrac olunan əmtəələrin strukturunda çox cüzi paya sahibdir. Belə ki, 2013-cü illə müqayisədə 2014-cü ildə toxuculuq materialları və məmulatlarının ixracının həcmi 43 faiz azalmışdır. Müqayisə olunan ildə pambıq ixracında 54,4 faiz, pambıq, keçə və sair toxunmamış materiallar, ip kəndir ixracında 40 faiz, xalçalar və digər toxunma döşəmə örtükləri ixracında 6,4 faiz, xüsusi parçalar, krujeva, qobelen, tikmələr ixracında 32,6 faiz, hopdurulmuş, üzlüklü toxuculuq materialları ixracında 90 faiz, toxunmuş trikotaj geyim əşyaları və ləvazimatları ixracı 98 faiz, paltar və geyim ləvazimatları (trikotajdan başqa) ixracı 26 faiz, digər hazır toxuculuq məmulatları, işlənmiş geyimləri icracında isə 34,6 faiz azalma müşahidə edilmişdir. Yalnız ipək ixracı 44,9 faiz, kimyəvi saplar ixracı isə 8,8 faiz artmışdır. Bu vəziyyəti formalaşdıran əsas amillərdən biri kimi sahənin rəqabətqabiliyyətinin aşağı olmasını, istehsal imkanlarının yüksək olmamasını və yerli istehsalın əsasən daxili bazar üçün nəzərdə tutulmasını göstərmək olar.

5. Toxuculuq sənayesi subyektlərinin fəaliyyətinin tənzimlənməsi mexanizmi bazar prinsipləri, qanunauyğunluqları, məqsədləri ilə yanaşı, həmçinin idarəetmənin funksiya və metodları ilə sıx bağlıdır. Onların sistem halında tətbiqi tənzimləmə mexanizminin fəaliyyəti üçün mühüm əhəmiyyətə malikdir. Müəyyən olunmuşdur ki, bazar iqtisadiyyatı şəraitində ən vacib problemlərdən biri də toxuculuq müəssisələrinin fəaliyyət mexanizmi ilə tənzimləmə mexanizminin bir-birilə əlaqələndirilməsi və onları formalaşdıran amillərin müəyyən hallarda qeyri-səmərəli şəkildə idarə edilməsidir.

6. Ölkədə toxuculuq sənayesi istehsalının elmi-texniki tərəqqinin son naliyyətlərinin və mütərəqqi texnologiyaların tətbiqinə əlverişli şərait yaratmaqla istehsalın artırılmasında, məhsulun keyfiyyətinin yüksəldilməsində, bu sahədə çalışanların sosial-iqtisadi vəziyyətinin yaxçılaşdırılmasında mühüm rol oynayaca bilər. Bu məqsədlə aşağıdakı təkliflərin reallaşdırılması məqsədəuyğundur:

- toxuculuq sənayesi xammalının istehsalı üçün əhəmiyyətli olan bölgələrin müəyyənləşdirilməsi meyarlarının iqtisadi və ekoloji tələblərinin dəqiqləşdirilməsi, müxtəlif iqtisadi rayonlarda xammal istehsalı üzrə potensialın müəyyən edilməsi və qiymətləndirilməsi;
- miqyas effektinin reallaşdırılmasının iqtisadi mexanizminin istehsal və emal müəssisələrinin inteqrasiya tələblərinə uyğunlaşdırılması;
- toxuculuq sənayesi xammalının istehsalı ilə məşğul olan təsərrüfatların kooperasiyalaşdırılmasının təşviq olunması, həmin prosesin ixtisaslaşma səviyyəsi ilə uzlaşdırılması;
- toxuculuq sənayesi istehsalının idxalı əvəzləmə imkanlarının reallaşdrılması və müvafiq ixrac potensialının stimullaşdırılması tədbirlərinin maliyyə mexanizminin təkmilləşdirilməsi;
- xammal istehsalının genişləndirilməsi nəzərdə tutulan regionlarda gəlirin ahəngdar daxil olmasının təminatı, məşğulluq səviyyəsinin yüksəldiməsi imkanlarının qiymətləndirilməsi;
- toxuculuq sənayesində idarəetmə mexanizminin təkmilləşdirilməsi, səmərəli kredit sisteminin yaradılması, bu məsələ ilə bağlı olaraq güzəştli kredit fondunun, kənd kredit kooperativləri

şəbəkəsinin, ipoteka kreditləşmə sisteminin, dövlət və özəl kommersiya bankları şəbəkələrinin, dotasiya və subsidiyalar sisteminin, əmtəə istehsalçılarının sığortası sisteminin, qiymətlərin sabitləşdirilməsi üzrə tədbirlər sisteminin reallaşdırılması;

– toxuculuq sənayesində innovasiyalı layihələrin stimullaşdırılması və onların tətbiqi imkanlarının genişləndirilməsi.

**Dissertasiya işinin mövzusu ilə bağlı müəllifin aşağıdakı məqalələri və tezisləri dərc edilmişdir:**

1. Beynəlxalq marketinqin təşkili və səmərəli həyata keçirilməsi metodları. Yeyinti, toxuculuq və yüngül sənaye sahələrinin aktual problemləri. Respublika Elmi-Praktiki konfransının materialları. Gəncə -2008.
2. Xidmət firmaları üçün marketinq strategiyalarının tədqiqat metodları. Yeyinti, toxuculuq və yüngül sənaye sahələrinin aktual problemləri Respublika Elmi-Praktiki konfransının materialları. Gəncə -2009.
3. Əmtəə istehsalı bazarının tədqiqi. Yeyinti, toxuculuq və yüngül sənaye sahələrinin aktual problemləri Respublika Elmi-Praktiki konfransının materialları. Gəncə -2011.
4. Marketinqin kommunikasiya sistemi sahəsində brendin müdafiə olunması istiqamətləri. Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş Texnoloji innovasiyalar və elmi texniki tərəqqi mövzusunda Respublika Elmi-praktiki konfransının materialları, Gəncə, 2013.
5. Совершенствование организации производства изделий легкой промышленности. Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika Elmi Konfransının Materialları Bakı-2013.
6. История совершенствование внешнеэкономических связей Азербайджана с другими странами. Актуальные проблемы и перспективы развития экономики в условиях модернизации. Саратов -2013.
7. Yüngül sənayenin inkişafında potensial ehtiyyatların müəyyənləşdirilməsinin zəruruliyi. Davamlı inkişaf və texnoloji innovasiyalar. Beynəlxalq elmi –praktik konfransın materialları Gəncə-2014.

8. Yüngül sənayenin inkişafına təsir edən amillərin qiymətləndirilməsi. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat institutu Elmi Əsərləri. II Buraxılış. Bakı-2014.

9. Факторы, влияющие на конкурентоспособность текстильной промышленности. Издательство Креативная экономика. Москва -2015.

10. Toxuculuq məhsulları istehsalının stimullaşdırılması istiqamətləri. Baloniya təhsil prosesində universitet – sənaye əlaqələrinin müasir problemləri. Beynəlxalq simpoziumun materialları. Gəncə-2016.

# Резюме


## Гурбанова Хатира Вели кызы

## Основныенаправления стимулирования производства текстильной промышленности Азербайджана

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.Во введении обосновывается актуальность выбранной темы диссертации, степень изученности исследования, её цель и задачи, практическая значимость и научные достижения и др.

В первой главе рассмотрены теоретические и методологические основы формирования и развитие текстильной продукции, роль стимулирования производства в текстильной промышленности в развитии экономики.

Во второй главе «Современное состояние и степень удовлетворения потребности в продукции текстильной промышленности» рассматривается степень использования существующего потенциала в легкой промышленности, а также динамика производства текстильной продукции, современное состояние отношений между предприятиями производящие сырье и обрабатывающими предприятиями, оцениваются факторы влияющие на развитие текстильной промышленности.

В третьей главе «Направления развития и стимулирования продукции текстильной промышленности» рассматривается роль  инвестиций стимулировании производства продукции в текстильной промышленности, государственная поддержка производства продукции, расширение внешне-торговых связей в производстве продукции текстильной промышленности.

Из проведённого исследования вытекают выводы и предложения, которые имеют научно-практическое значение.

**Summary**

**Gurbanova Khatira Vali**

**Directions of stimulation of production in the Azerbaijan textile industry.**

Thesis contains of introduction, three chapters, result and the list of used literature. At the entrance is dealt with the importance of the issue, the level of study of the problem, aim and task, practical importance, scientific innovations and etc.

The first chapter is called “Theoretical and methodological basis of the formation and promotion of textile production in the field of light industry”. In this chapter it is deal with theoretical and methodological basis of the formation and promotion of textile in the field of light industry and the role of stimulation of the textile industry products in economic development.

The second chapter of thesis called “The current state of the textile industry products and level of service meets the demand” it was assessed the level of usage of the existing potential in the field of light industry and dynamics of production of textile products, the current state of the relations between raw material production enterpises and processing enterprises, factors affecting the development of the textile industry.

The third chapter called “Prospects for the development and the directions of stimulation of the textile industry products” assessed the roles of investments in stimulation of the textile industry products” assessed the roles of investments in stimulation of industrial production, implementation of state support for production, the expansion of foreign trade relations in the development of the textile industry products.

At the end of the study are given the results.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

---

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ НЕФТИ И ПРОМЫШЛЕННОСТИ**

===========================================

***На правах рукописи***

**Гурбанова Хатира Вели кызы**

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ СТИМУЛИРОВАНИЯ ПРОИЗВОДСТВА ТЕКСТИЛЬНОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА

**Специальность: 5304.01 – Виды экономической деятельности**

## АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по экономики

**БАКУ – 2016**